# Özəl sektorun inkişafına dəstək

## *Dövlət başçısı bildirib ki, sahibkarların fəaliyyətinə mane olan əsassız tələblər irəli sürmək yolverilməzdir*

**Həyata keçirilən uğurlu strategiya, müasir çağırışlara cavab verə bilən iqtisadi model ölkənin davamlı dinamik inkişafını təmin edib. Azərbaycanın bütün bölgərində müasir tələblərə uyğun, dünya bazarlarında müvəffəqiyyətlə rəqabət apara bilən məhsul istehsal edən sənaye və emal müəssisələrinin sayı günügündən artır. Bir sözlə, ölkəmizin hər yerində ən müasir emal, sənaye və xidmət sahələri yaradılır. Nəticədə ölkə iqtisadiyyatı ilbəil yeni, inkişafın daha yüksək mərhələsinə qalxır. Təsadüfi deyil ki, hazırda ümumi daxili məhsulda özəl sektorun payı 80 faizdən çoxdur. Bu da öz növbəsində ölkə həyatının bütün sahələrində tərəqqinin davamlılığına, insanların rifah halının daha da yaxşılaşmasına, iqtisadiyyatın hazırkı qlobal maliyyə və iqtisadi böhran şəraitində dayanaqlılığının daha da möhkəmlənməsinə zəmin yaradır.**

Təsadüfi deyil ki, 2015-ci ilin altı ayının yekunları da ürəkaçandır. Ümumən iqtisadiyyatda 5,7 faiz artıma nail olunub. Ən diqqətçəkən odur ki, real sektorda 9,2 faiz artım baş verib. Bu prosesdə diqqət edilesi məqam odur ki, sahibkarlıq fəaliyyəti məhz real iqtisadiyyatın əsasını təşkil edir. Azərbaycanda ictimai formasiyada bazar iqtisadiyyatı hakimdir. Yəni özəl sektor inkişaf etməsə, iqtisadiyyatın tərəqqisindən söhbət gedə bilməz. Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında qeyri-neft sektorundakı artımın sahibkarlıq fəaliyyətinin inkişafı sayəsində baş verdiyini vurğulamışdır: "Qeyd etməliyəm ki, qeyri-neft sektorunun inkişafı çox sevindiricidir ki, bu il 9,2 faiz artıb. Əlbəttə ki, daha çox sahibkarlığın inkişafı, sahibkarların fəaliyyəti hesabına. Çünki dövlət sektorunda artımı daha çox enerji sektoru təmin edir. Ona görə sahibkarlığın inkişafı Azərbaycanda daim diqqət mərkəzində olmalıdır. Bildiyimiz kimi, biz güzəştlər edirik, fermerlərə subsidiyalar, güzəştli şərtlərlə yanacaq və gübrə verilir. Təkrar əkin üçün indi yeni şərait yaradılır. Digər məsələlər də öz həllini tapır". Göründüyü kimi, sahibkarlığın inkişafı dövlət siyasətində prioritetdir. Aydındır ki, çoxşaxəli iqtisadiyyat iqtisadi və siyasi müstəqilliyin əsas bünövrə daşlarıdır. Ölkəni asılılıqdan qurtaran amillərdir. Qeyri-neft sektorunun, yəni real iqtisadiyyatın əsası isə sahibkarlıq fəaliyyətinə yaradılmış hüquqi və maddi təminatdan kifayət qədər asılıdır. Azərbaycanda özəl sektorun intensiv inkişafı üçün möhkəm hüquqi təməl yaradılıb, dövlətin maddi dəstəyi də davamlıdır. Sahibkarlıq fəaliyyətinin inkişafında güzəştli kreditlərin və faiz dərəcələrinin xüsusi əhəmiyyəti vardır. Bu istiqamətdə də pozitiv siyasət yürüdülür. Dövlət başçısı bu barədə deyib: "Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə güzəştli şərtlərlə kreditlər verilir. İndi təkliflər var ki, faiz dərəcələrini bir az da aşağı salaq. Mən bunu dəstəkləyirəm ki, daha da böyük gəlir əldə etsinlər. Yəni dövlət çalışır ki, bu məsələ daim diqqət mərkəzində qalsın. Məhz bunun nəticəsində bu gün Azərbaycanda çox güclü sahibkarlar sinfi yaranıb".

Aydındır ki, bazar iqtisadiyyatının hakim olduğu ölkələrdə dövlət büdcəsi əsasən sahibkarlıq fəaliyyətindən gələn vergilər sayəsində formalaşır. Bu səbəbdən də özəl sektorun inkişafı, ona mane olan halların aradan qaldırılması mühüm əhəmiyyət kəsb edir. Yəni dövlət hüquqi, maddi, siyasi dəstəyi verir, maneələri aradan qaldırır, sahibkar isə vergilərini vaxtında verir. Beləliklə dövlətin idarəetmə mədəniyyəti ilə vergivermə mədəniyyəti vəhdət təşkil edəndə iqtisadiyyatın dinamik inkişafı təmin edilir. Bir çox hallarda sahibkarlar vergi ödəmə istiqamətində əyintilərə, gizlətmələrə, yayınmalara və s. yol verirlər.

Ölkə başçısı sahibkarların vergi ödəmə prosesində məsuliyyətli olmağı bir vəzifə kimi qarşıya qoyub: "Ancaq, eyni zamanda sahibkarlar da məsuliyyətli olmalıdırlar. Onlardan bizim heç bir başqa tələbimiz yoxdur, ancaq vergiləri vaxtında ödəsinlər... Əvvəlki dövrlərdə neftin qiyməti yüksək idi. Ölkəyə çox böyük valyuta axını gəlirdi. Hesab edirəm ki, biz maksimum şərait yaratmalıyıq ki, sahibkarlıq inkişaf etsin və sahibkarlar daha da çox vəsait əldə etsinlər, onu yenidən ölkə iqtisadiyyatına qoysunlar... Baxmayaraq



dediyim kimi, iqtisadiyyat, qeyri-neft sektorumuz artır, sosial proqramlar tam şəkildə icra edilir, amma bizim dövlət investisiyamız azalıbdır. Kapital qoyuluşu azalıbdır".

Sahibkarlığa şərait yaradılması şəxslərin və qrupların iqtisadi təşəbbüskarlıqlarına müvafiq stimul verilməsi deməkdir. Ölkə rəhbərliyi bu istiqamətdə kifayət qədər qətiyyətli addımlar atır və maneələri aradan qaldırmaq üçün vaxtında lazımi göstərişləri verir. Dövlət başçısı özəl sektorun inkişafına yaradılan maneələrin ölkənin mənafeyinə zərbə vurduğu və bu tamahkarlığın ölkəyə xəyanət olduğu barədə deyib: "Ölkəmiz sahibkarlıq hesabına inkişaf edəcək. Di gəl ki, kimsə varlanmaq üçün gəlsin sahibkarları boğsun ki, sahibkar qapısına qıfıl vurub çıxıb getsin. Bu dözülməz haldır. Yəni bunu edən dövlətə xəyanət edir. Bunu edən sadəcə olaraq pul qazanmır, dövlətə xəyanət edir. Mən bunu belə qəbul edirəm və hamı bunu bilsin və nəticə çıxarsın".

**Ataş CƏBRAYILOV,**
**"Respublika".**